STEAM
AZƏRBAYCAN

SAF 2025
BEYNƏLXALQ
STEAM AZƏRBAYCAN FESTİVALI



# ROBOSOCCER

## KATEQORİYASI

## SEÇİM MƏRHƏLƏSİNİN QAYDALARI

BAKI 2025

# 1.SEÇİM MƏRHƏLƏSİ

**1.1.** Final mərhələsində iştirak hüququ qazanacaq komandalar seçim mərhələsində müəyyən olunacaq.

**1.2.** Komanda RoboSoccer kateqoriyasında iştirak edəcəyi robotu yığmalıdır.

**1.3.** Robot yalnız Arduino platası bazasında ola bilər. Robotun texniki tələbləri "**Final Mərhələsinin Qaydaları"** təlimat PDF-də ətraflı təsvir edilib. Robot qeyd edilmiş bütün tələblərə cavab verməlidir.

**1.4.** Seçim mərhələsinin birinci tapşırığı robot haqqında qeyd edilmiş kriteriyalar üzrə təqdimat sənədinin (PDF formatında) hazırlanmasıdır.

**Təqdimatın tərkibi:**

- Komanda haqqında məlumat;
- Robot haqqında ümumi məlumat;
- Robotda istifadə olunmuş mühəndislik həllərinin təsviri;
- Əgər 3D çap ilə hər hansı detal hazırlanıbsa, onun 3D proqramda 2-3 rakursdan görüntüsü və 2-3 real fotoşəkli;
- Əgər CNC ilə hazırlanmış detal varsa onun yığıldığı proqramda görüntüsü və real fotoşəkli;
- Naqillərin sadə şəkildə çəkilmiş qoşulma sxemi;
- Kodun işləmə məntiqinin izahı;
- Robotun müxtəlif tərəflərdən 3 ədəd şəkli.

**1.5.** Seçim mərhələsinin ikinci tapşırığı videoçarxın hazırlanmasıdır. **Videoçarx aşağıda qeyd olunan mövzuları əhatə etməlidir:**

- Robotun ilkin hazırlanma mərhələsindən son versiyasına qədər üzərində edilən dəyişikliklər ardıcıllıqla göstərilməlidir (Görülmüş işlərin xronologiyası).
- Yuxarıda qeyd edilmiş kriteriyalar haqqında komandanın üzvləri növbə ilə qısa şəkildə danışmalıdırlar.
- Hazır robotun sürülməsi göstərilməlidir: İrəli-geri getmək və sağa-sola dönmək.
- Robotun gövdəsi CNC və ya 3D printer ilə yığılıbsa, videoda hazırlanma prosesinin, yəni CNC kəsim və ya 3D çapın 5-10 saniyəlik çəkilişi.

**1.6. Videonun texniki tələbləri:**

- **İki-üç dəqiqədən ibarət** olmalı və yalnız əsas məqamlar saxlanılmaqla montaj edilməlidir. Danışıq olmayan hissələr sürətləndirilə və üzərinə melodiya (şərt deyil) əlavə edilə bilər.
- Videoçarx "**YouTube**" platformasına yüklənməlidir və keyfiyyəti minimum **1080p** olmalıdır.
- Videonun **təsvirində** onun Beynəlxalq STEAM Azərbaycan Festivalına qoşulmaqla bağlı olması qeyd edilməlidir.

**1.7.** Əgər PDF və videoçarxlarda robotun dəst yox həqiqətən də fərdi dizaynla yığılmasını təsdiq edən kifayət qədər aydın çəkilmiş materiallar olmazsa, komanda fərdi dizayn və mühəndislik üzrə bal almayacaq.

**1.8.** Təqdimat faylları **yalnız bir dəfə** göndərilə bilər. Həmçinin, aşağıda qeyd olunan hallar baş verərsə təqdimat **dəyərləndirilməyəcək:**

- Robot "Final mərhələsinin qaydaları"nda qeyd olunan texniki tələblərdən hər hansı birinə cavab vermirsə;

- PDF təqdimatın tərkibi tam deyilsə (Yəni 1.4 bölməsinin alt bəndlərindəki hansısa hissə tamamilə çatışmırsa);
- Videoçarxda əhatə edilməli olan mövzuların hansısa tamamilə yoxdursa;
- Videoçarx texniki tələblərə cavab vermirsə.

# 2. QİYMƏTLƏNDİRMƏ

| MEYARLAR | BAL |
|---|---|
| **Komanda işi** (Videoçarxa əsasən)<br>*Komanda üzvlərinin əməkdaşlıq, aktiv iştirak, qarşılıqlı dəstək və vəzifələri birgə yerinə yetirmə səviyyəsi.* | **1-10** |
| **Videoçarx**<br>*Məzmunun uyğunluğu* | **1-15** |
| **Təqdimat sənədi / Mühəndislik dəftəri**<br>*Təqdimat sənədinin əhatəliliyi və aydınlığı.* | **1-20** |
| **Robotun hazır dəst, yaxud fərdi yığılmış olması**<br>*(Tam fərdi – 25, Qismən fərdi – 15, Tam dəst - 5)* | **5/15/25** |
| **Robotun texniki dizaynı**<br>*Robotun mühəndislik həllərinin səmərəliliyi, dizayn estetikası və səliqəsi (naqillərin səliqəli yığılması).* | **1-20** |
| **Kodun işləmə məntiqi** | **1-10** |
| **YIĞILA BİLƏCƏK MAKSİMAL BAL: 100** | |